37 kq çəki dərəcəsində çıxış edən idmançımız ilk görüşdə Avstraliya, Ukrayna və Rusiya təmsilçilərinə qalib gələrək yarımfinal mərhələsinə vəsiqəni təmin edib. Yalnız finala vəsiqə uğrunda mübarizədə Serbiya idmançısına məğlub olaraq bürünc medala layiq görülüb.

4 gün davam edən çempionatda 65-ə yaxın ölkədən 600-dək taekvondoçu mübarizəyə qoşulub. Azərbaycan milli yığma komandası yarışa 18 idmançı ilə qatılıb.

Ümumilikdə qızlardan ibarət komanda hesabında medalların sayına görə İran milli komandası birinci, Türkiyə ikinci, Çin üçüncü yeri, oğlanlardan ibarət komanda hesabında medalların sayına görə isə İran birinci, Rusiya ikinci, Cənubi Koreya üçüncü yeri tutub.